

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 176 (23.818)**

***24 sentyabr 2021-ci il, cümə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiymətі 20 qəpik**


## Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzillə və ya fərdi evlə təmin olunması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 1,0 (bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## Səfir Serxio Osvaldo Perez Qunella: “Naxçıvanı gördükdən sonra bir daha əmin oldum ki, Azərbaycan tarixində, azərbaycanlıların həyatında bu diyar olduqca önəmlidir”

Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella sentyabrın 22-də muxtar respublikamıza səfər edib. Diplomat əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, ehtiramını bildirib. Sonra səfir Heydər Əliyev Muzeyini ziyarət edib. Mədəniyyət ocağı ilə tanışlıq zamanı qeyd olunub ki, bu gün muzeyin fondunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 5 mindən çox eksponat toplanıb. Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Muzeydə ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993-cü illər) şəxsi sənəd və materiallar, imzaladığı sərəncamlar, qərarlar və digər tarixi sənədlər qorunub saxlanılır.

Naxçıvan Günəş Elektrik Stansiyası ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, 2015-ci ildə Babək rayonunun Xalxal kəndi yaxınlığında tikilmiş Naxçıvan Günəş Elektrik Stansiyası ən son texnoloji yeniliklər əsasında qurularaq fəaliyyət göstərir. 36 hektar ərazidə tikilmiş stansiyada ən müasir “şüşə-şüşə” tipli günəş panelləri quraşdırılıb, onun fəaliyyəti tamamilə kompüterləşdirilib.

Naxçıvan Biznes Mərkəzinə gələn qonağın nəzərinə çatdırılıb ki, mərkəzin sərgi salonunda muxtar respublikada fəaliyyət göstərən 78 müəssisənin 166 adda 1293 çeşiddə məhsulları nümayiş olunur. Muxtar respublikada sahibkarlığın bütün parametrlər üzrə inkişafı yerli istehsalın həcminin artmasına və xarici ticarət əlaqələrinin genişlənməsinə töhfə verib, ixracyönümlü məhsul istehsalına nail olunub. Hazırda muxtar respublikada 384 növdə məhsul istehsal edilir, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. Qazanılan uğurlar bir daha təsdiq edir ki, muxtar respublikada dövlətin sahibkarlar üçün yaratdığı şərait, eyni zamanda sahibkarların göstərilən qayğıdan düzgün istifadəsi ümumi inkişafı təmin edib.

“Gəmiqaya Meyvə Məhsulları Kompleksi” və “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli cəmiyyətləri ilə tanışlıqdan sonra Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətinə gələn səfirə məlumat verilib ki, zavodda 7 texnoloji xətt quraşdırılmış 4 sex fəaliyyət göstərir. Bu xətlərdə qazlı və qazsız “Sirab” təbii mineral müalicəvi süfrə suyu müxtəlifhəcmli plastik və şüşə butulkalara doldurulur. Hazırda zavodda 21 çeşiddə məhsul istehsal olunur. Qablaşdırmada istifadə edilən xammalın bir qismi Türkiyə və Gürcüstandan gətirilir, qalanı isə muxtar respublikanın daxili imkanları hesabına ödənilir. Minerallarla zəngin olan “Sirab” daxili tələbatı ödəməklə yanaşı, Rusiya, Belarus, Qazaxıstan, Türkiyə, Türkmənistan, Çin, İran, İraq, Qətər, Polşa, Küveyt, Ukrayna və Baltikyanı ölkələrə də göndərilir.

Səfirin ikinci günü diplomat “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyində olub. Bildirilib ki, bərpa işləri zamanı qalanın tarixiliyi qorunub saxlanılıb. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Bu gün Əlincəqalanın zirvəsində Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, dövlətçiliyinin rəmzi olan üçrəngli bayrağımız dalğalanır. Qaladan xoş təəssüratlarla ayrılan səfir Əlincəqalanı “Naxçıvanın Machu Picchusu” adlandırıb.

Duzdağ Fizioterapiya Mərkəzinə gələn səfirə məlumat verilib ki, mərkəz 1979-cu il dekabrın 29-dan 50 çarpayılıq xəstəxana kimi Naxçıvan duz mədəni bazasında, dəniz səviyyəsindən 1173 metr hündürlükdə fəaliyyət göstərir. 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb. Dağın altına doğru 300 metr uzanan mərkəzdə yüksək səviyyəli xidmət şəraiti yaradılıb. Son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri buraya gələrək müalicə alırlar.

“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi və Naxçıvan Dövlət Xalça Muzeyi ilə tanışlıq zamanı Naxçıvanın qədim və zəngin tarixi, milli dəyərlərimizlə bağlı verilən məlumatlar diplomatda böyük maraq yaradıb.

Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella “Şərq qapısı” qəzetinə müsahibəsində muxtar respublika ilə bağlı təəssüratlarını bölüşüb: – Bildiyiniz kimi, biz xarici ölkələrdən Azərbaycana təyin olunmuş səfirlər Bakıda yaşayırıq. Əsas fəaliyyət mərkəzimiz oradadır. Lakin buna baxmayaraq, ölkənizin digər bölgələrini də yaxından tanımaq üçün səfərlər edirik. Səfərlərin əsas məqsədi regionların tarixini, orada formalaşan adət-ənənələri, mətbəx mədəniyyətini yaxından tanımaq, potensial imkanlarla maraqlanıb mümkün əməkdaşlıq əlaqələrini gücləndirməkdir. Mən də Naxçıvana bu məqsədlə gəlmişəm. İkigünlük səfər müddətində qeyd etdiyim istiqamətlər üzrə Naxçıvanı daha yaxından tanıya bildim və gəldiyim qənaət odur ki, bura çox heyrətamiz, gözəl, perspektivli yerdir. Ümumiyyətlə, düşünürəm ki, heç bir şifahi məlumat canlı təması əvəz edə bilməz. Çünki bir yerə səfər edib ora ilə tanışlıq, insanları ilə ünsiyyət əlaqələrin möhkəmlənməsinə daha böyük töhfə verir.

Diplomat qeyd edib ki, ikigünlük səfər müddətində rəsmi və qeyri-rəsmi bir sıra görüşlər keçirib, yüksək qurumların rəhbərləri ilə bir araya gələrək gələcək əməkdaşlıq əlaqələrini müzakirə ediblər. Görüşlər öz səmimi ab-havası və məhsuldar olması ilə seçilib. Naxçıvanın gəzməli-görməli, turistlik yerləri ilə də yaxından tanış olduğunu vurğulayan Serxio Osvaldo Perez Qunella yekun fikrini belə ifadə edib: “Naxçıvandan çox xoş təəssüratlarla və ölkələrimiz arasında əməkdaşlığı dərinləşdirmək baxımından konkret ideyalarla ayrılıram. Naxçıvanı gördükdən sonra bir daha əmin oldum ki, Azərbaycan tarixində, azərbaycanlıların həyatında bu diyar olduqca önəmlidir”.





**Nail ƏSGƏROV**

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafı rabitə infrastrukturunun da yenidən qurulmasına əsaslı zəmin yaradıb. Muxtar respublikanın

## Araz kəndində rabitə infrastrukturu yenidən qurulur



digər şəhər, qəsəbə və kəndlərində olduğu kimi, Babək rayonunun Araz kəndində xətt təsərrüfatının yenilənməsi, əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində zəruri işlər görülür.

Rabitə sahəsində gedən sürətli inkişaf, fiber-optik xətlərin çəkilməsi, yüksəksürətli internet şəbəkəsinin yaradılması, ümumilikdə isə informasiya-kommunikasiya xidmətlərinin müasir tələblər səviyyəsində qurulması əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlərin davam etdirilməsinə əsas zəmin yaradır. Həyata keçirilən kompleks tədbirlərin davamı olaraq hazırda rayonun Araz kəndində rabitə infrastrukturu yenidən qurulur, yeni Rabitə Evi inşa edilir, Yeni Nəsil Avtomat Telefon Stansiyasının qurulması istiqamətində müvafiq işlər görülür. Aparılan quruculuq işləri çərçivəsində xətt təsərrüfatında əsaslı təmir işləri aparılır, kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltı xətlərlə əvəz olunur. Bir sıra yerlərdə uzun müddət istismar olunan və müxtəlif səbəbdən yararsız vəziyyətə düşən taxta rabitə dirəkləri metal dirəklərlə əvəzlənir, müxtəlif tutumlu yararsız kabellər yeni kabellərlə əvəz olunur, yeni abonent qutuları və paylayıcı şkaflar əlavə olunur, habelə rabitə xətlərindəki nasazlıqlar bərpa edilir və digər zəruri işlər həyata keçirilir.

Digər rayonlarda olduğu kimi, Babək rayonunda da sakinlərə göstərilən rabitə xidmətlərinin keyfiyyətinə nəzarət edilməsi üçün mütəmadi olaraq xətt təsərrüfatının vəziyyəti ilə bağlı təhlillər aparılır, müraciətlərinə uyğun olaraq texniki dəstək və metodik köməkliklər göstərilir.

Rabitə infrastrukturunun yenidən qurulması xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinə, əhalinin rifah halının yaxşılaşmasına xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Şahbuzda Mərasim evləri tikilir





Son illər muxtar respublikada yas mərasimlərinin əksəriyyəti, əsasən, inşa edilən xüsusi Mərasim evlərində təşkil olunur. Bu evlərin tikintisi sakinlərin yas mərasimlərini rahat şəkildə keçirməsinə şərait yaradır və əlavə xərclərin qarşısını alır.

Şahbuz rayonunun 7 kəndində bu məqsədlə Mərasim evləri tikilir. Rayonda bu işdə dövlətlə yanaşı, sahibkarlar, kəndlərin imkanlı sakinləri də fəallıq göstərirlər.

Hazırda rayonun Yuxarı Qışlaq və Sələsüz kəndlərində inşa olunan Mərasim evlərində işlər yekunlaşmaq üzrədir. Kükü, Aşağı Qışlaq, Mahmudoba, Kolanı və Şada kəndlərində isə inşa olunan Mərasim evlərində işlər davam etdirilir. Bir qayda olaraq Mərasim evlərində qadın və kişilər üçün ayrı-ayrı zallar, mətbəx, namaz otağı və digər otaqlar yerləşir.

Qeyd edək ki, hazırda Şahbuz şəhərində də iki Mərasim evi fəaliyyət göstərir.

**Xəbərlər şöbəsi**



27 sentyabr 2020-ci il – 30 ilin nisgilinin, ölmüş ümidlərin, gözü ata-baba torpağında qalan bir milyona yaxın qaçqın və məcburi köçkünün yurd həsrətinə son qoyulmağa başlanıldığı gün... Bəli, gözümüzü açıb “20 faiz torpağımız düşmən işğalı altındadır, ancaq necə olursa-olsun, biz o torpaqları işğaldan azad edəcəyik” kəlməsini evimizdə böyüklərimizdən, məktəbdə müəllimlərimizdən eşidir və eşitdiyimiz bu cümlələr bizi hər zaman düşündürürdü. İndi ürəkdolusu deyirik, yazıldı o tarix, gəldi də, keçdi də o zaman, hələ üzərindən 1 ili belə yola salmaqdayıq. QƏLƏBƏ qazanan xalq, dövlət, ordu olaraq...

## Tarixi Qələbəmiz qürur mənbəyimizdir



*Birillik şanlı tariximizə nəzər salaq...*

2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev efirdən Azərbaycan xalqına müraciət etdi, Ermənistanın işğalçılıq siyasətinə son qoyub, torpaqlarımızın hər bir qarışı azad olunanadək, əks-hücum, əks-həmlə əməliyyatının davam etdiriləcəyini bildirdi.

Həmin tarixdə Təhlükəsizlik Şurasının iclasını çağıran ölkə Prezidenti bir daha Azərbaycanın haqq savaşı apardığını, haqq yolunda olduğunu bəyan edərək təcavüzkar ölkəyə, onun havadarlarına sərt mesajlarını və xəbərdarlıqlarını çatdırdı, Azərbaycanın Zəfər qazanacağını, Qarabağın Azərbaycanın olduğunu birmənalı şəkildə vurğuladı. Və **“Qarabağ Azərbaycandır!”** – söylədi.

Sentyabrın 28-də ölkə Prezidenti tərəfindən ölkədə qismən hərbi səfərbərliyin elan edilməsi ilə bağlı Sərəncam imzalandı və bu, Azərbaycan xalqı tərəfindən sevinclə qarşılandı, Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bir andaca Vətəni qorumaq üçün müsəlləh əsgərə döndü, yüzlərlə, minlərlə gəncimiz hərb meydanına yola düşdü.

Düşmən dövlət olan Ermənistanın əl atdığı növbəti qanlı təxribat, bütün cəbhəboyu atəşkəsi pozması onun üçün baha başa gəldi. Təsəvvürünə belə, gətirə bilmədiyi qərarlı, əzmli Azərbaycan xalqını, dövlətini, müzəffər Azərbaycan Ordusunu qarşısında gördü.

*Vətən müharibəsinin başlanması...*

Bütün cəbhəboyu əks-hücum tapşırığı alan yenilməz Azərbaycan Ordusu qısa zamanda bunu Vətən müharibəsinə, Qələbəyə gedən Zəfər yürüşünə çevirdi. Bir neçə saat ərzində Azərbaycanın işğal altında olan Füzuli və Cəbrayıl rayonlarının 7 kəndini, Goranboy rayonu istiqamətindəki Murovdağ yüksəkliyindəki Murov zirvəsini, Ağdərə istiqamətindəki strateji yüksəklikləri işğaldan, düşmən tapdağından azad edərək onları nəzarətə götürdü, düşmənə dağ çəkən yenilməz ordumuz ona həm canlı qüvvə, həm də hərbi texnika sarıdan böyük itkilər verdirdi. Qeyd edək ki, Vətən müharibəsi dövründə Azərbaycan Ordusu üzərinə düşən müqəddəs vəzifəsini uğurla yerinə yetirir, işğal altında olan torpaqları azad etmək üçün dayanmadan irəli gedirdi.

*Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər dalınca Zəfər yazıldı...*

2020-ci il oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətində belə demişdir: ***“Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Bizim qisasımız döyüş meydanındadır. Bu günlər ərzində – 27-si sentyabr tarixindən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulubdur... Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!”***

Bəli, yenilməz, Müzəffər Azərbaycan Ordusu zəfər yürüşünü davam etdirərək işğal altında olan Azərbaycanın tarixi torpaqlarını 30 illik əsarətdən sonra qısa bir zaman ərzində qurtararaq öz sahiblərinə, doğmalarına qovuşdurdu.

*QƏLƏBƏYƏ doğru…*

Şuşanın Azərbaycan xalqı üçün tarixi, mədəni və mənəvi əhəmiyyəti hamıya məlumdur. Mədəniyyətimizə böyük sənətkarlar, diplomatiyamıza uzaqgörən siyasətçilər, hərbimizə böyük qəhrəmanlar bəxş edən Şuşanın 1992-ci il mayın 8-də erməni birləşmələri tərəfindən işğal edilməsi xalqımızı ikiqat sarsıtmış, böyük kədər hissi doğurmuşdu. 28 ildən çox bir zaman dilimində əsarətdə qalan Şuşamızın işğalı ilə heç zaman barışmayan xalqımız Azərbaycanın alınmaz qalası hesab edilən Şuşanın, işğal altındakı bütün torpaqlarımızın azad ediləcəyinə hər zaman inanıb. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətində Azərbaycanın tarixi şəhəri, bütün Qafqazın mədəniyyət mərkəzi hesab edilən, öz hərbi-strateji önəmi ilə yanaşı, həm də mənəvi əhəmiyyəti olan Şuşanın Şanlı Ordumuz tərəfindən azad edildiyini bildirdi: ***“İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq...”*** cümlələri Azərbaycanın son yüzillik tarixinin ən möhtəşəm müjdəsi idi. Rəşadətli Ordumuzun Şuşaya bayraq sancması və bu xəbərin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən xalqa çatdırılması milli qürurumuzun da, mənliyimizin də, mədəniyyətimizin də, incəsənətimizin də, tariximizin də azad edilməsini, hətta yeni yüksəliş mərhələsinə daxil olmasını sübut etdi. Şuşanın işğaldan azad olunması xalqımız tərəfindən Qarabağın döyünən ürəyinin xilas edilməsi kimi qiymətləndirildi. Bu zəfər faktiki olaraq müharibənin taleyinin həllində önəmli rol oynayaraq, böyük önəm kəsb etdi. Azərbaycanın tarixinə 8 noyabr– Zəfər Gününü yazdı. Və beləcə, Şanlı Ordumuzun sentyabrın 27-də başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində torpaqlarımız düşmən işğalından azad edildi.

Artıq tarixə qovuşmuş 2020-ci il Azərbaycan xalqı üçün istər siyasi, istər diplomatik, istərsə də digər sahələr üzrə uğurlarla yadda qaldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin: ***“Qarabağ Azərbaycandır!”*** ifadəsi bizim qələbəmizin xəbərçisi idi və qələbəmizin də rəmzinə çevrildi.

*Kəsildi Şuşamdan zalım ayağı,*
*Düşmənin köksünə basdıq qəm dağı.*
*Yetişdi Qələbə – çatdı Qələbə,*
*İllərin nisgilin atdı Qələbə.*
*Alqış Komandana, alqış bu ana,*
*Qarabağ qovuşdu Azərbaycana!*

**Səriyyə SALAHOVA**

---

***Son illərdə Kəngərli rayonunda təhsil müəssisələrinin yenidən qurulması, onların zəruri avadanlıq və informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması təhsilin səviyyəsinin yüksəlməsinə imkan vermiş, yeni uğurların qazanılmasına şərait yaratmışdır. Ötən illərdə olduğu kimi, 2020-2021-ci tədris ilində də Kəngərli rayonunun tam orta məktəblərini bitirən məzunlar uğurlu nəticələr əldə etmişlər. Qəbul imtahanlarında yüksək nəticə göstərmiş məzunlar artıq ali məktəb auditoriyalarında həvəslə elmin sirlərinə yiyələnəcəklər. Biz də onların sevincini oxucularımızla bölüşürük.***

*Təhsil millətin gələcəyidir*

## Təhsilə göstərilən qayğı öz nəticələrini verməkdədir

***Ulxansoy Sərvan Mərdan oğlu:*** – Kəngərli rayonunun Xok kəndində böyüyüb boya-başa çatmışam. Elə ilk təhsilimi də doğma kəndimizdəki tam orta məktəbdə almış və bu il həmin məktəbin XI sinfini xüsusi nailiyyətlərlə başa vuraraq, “Gümüş” nişanla təltif olunmuşam. Qəbul imtahanlarında III ixtisas qrupu üzrə iştirak edərək 650,8 bal toplamışam. Əldə etdiyim nəticə ilə uşaqlıqdan bəri hüquqşünas olmaq istəyimi gerçəkləşdirmişəm. Təhsilimi Naxçıvan Dövlət Universitetində Hüquq ixtisası üzrə davam etdirəcəyəm.



Bu gün sevincimin həddi-hüdudu yoxdur. Ali təhsilə belə yüksək nəticə ilə başlayacağıma görə, ilk növbədə, dövlətimizə borclu olduğumu mütləq deməliyəm. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda bütün sahələrlə yanaşı, təhsilə də yüksək dövlət qayğısının göstərilməsi göz qabağındadır. Bu qayğının nəticəsidir ki, artıq biz ən müasir standartlarda və ən zəruri avadanlıqlarla təchiz olunmuş məktəblərdə təhsil alırıq. Məktəblərin maddi-texniki bazaları gücləndirilir, təhsilin yüksək səviyyədə qurulması üçün hərtərəfli şərait yaradılır. Oxuduğum məktəbdə də təhsilin keyfiyyəti ilbəil yaxşılaşdırılır. Mənə dərs deyən müəllimlərimə də dərin minnətdarlığımı bildirmək istəyirəm.

***Hacıyeva Aysel Vüsal qızı:*** – Şahtaxtı kəndində anadan olmuşam və bu il kəndimizdəki Akademik Zərifə Əliyeva adına tam orta məktəbin XI sinfini əla qiymətlərlə bitirmişəm. Qəbul imtahanlarında isə III ixtisas qrupu üzrə iştirak etmiş, 588,3 bal toplamışam. Təhsilimi Naxçıvan Dövlət Universitetində Tarix ixtisası üzrə davam etdirəcəyəm.



Uğur qazanmağım bir neçə amillə bağlıdır. Bunlardan başlıcası məktəbimizdə yaradılmış müasir şərait, zəngin kitabxana, elektron lövhəli siniflər, fənn kabinələri və müəllimlərimizin zəhməti hesab edilməlidir. Təbii ki, bu, biliklərə yiyələnməyimizdə mühüm əhəmiyyətə malikdir. Müəllimlərimiz isə hər bir dərsi dərindən öyrənib qavramağımız üçün səylə çalışıb və bilmədiklərimizi bizə ətraflı izah ediblər. Bütün bunlar məni də həvəsləndirib ki, oxuyam, ali təhsil alam. Ali məktəbə qəbul olub tələbə adını qazanmaq vəzifəsini qarşıma məqsəd qoyduqdan sonra isə mövzuları təkrar-təkrar oxumuş, sinif testlərini həll etmiş, proqramı tam öyrəndiyimə əmin olana qədər çalışmışam. Tam şəkildə qavramadığım, dərk etməkdə nisbətən çətinlik çəkdiyim tapşırıqlarla bağlı fənn müəllimlərimə müraciət etmişəm. Fürsətdən istifadə edərək dövlətimizə və on bir il əziyyətimizi çəkən müəllimlərimizə dərin minnətdarlığımı bildirirəm.

***Əliyeva Münəvvər Anar qızı:*** – Qarabağlar kəndində böyüyüb boya-başa çatmışam. Kəndimizdəki 2 nömrəli tam orta məktəbi uğurla başa vuraraq, “Gümüş” nişanla təltif olunmuşam. IV ixtisas qrupu üzrə qəbul imtahanlarında iştirak edərək 575,6 bal toplamışam. Uşaqlıqdan ən böyük arzum həkim olmaq idi. Bu arzumu Naxçıvan Dövlət Universitetində reallaşdıracağam.



Qəbul imtahanlarında yüksək nəticə göstərdiyim üçün, ilk növbədə, dövlətimizə borcluyam. Bu gün təkcə Naxçıvan şəhərində deyil, muxtar respublikanın bütün bölgələrində, ən ucqar dağ kəndlərimizdə belə, müasir məktəb binaları tikilərək və ya yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilir. Məktəblərin maddi-texniki bazaları gücləndirilir. Bütün bu yaradılan imkanların əvəzində isə biz gənclərin qarşısında, sadəcə, yaxşı oxumaq deyil, həm də gələcəyin peşəkar mütəxəssisi kimi yetişib Vətənə layiqli xidmət etmək vəzifəsi durur.

***Seyidov Ramin Miramil oğlu:*** – Orta təhsili başa vurduğum Qıvraq qəsəbə tam orta məktəbində keçirilən sınaq-test imtahanlarında topladığım yüksək ballar gələcəkdə arzularımın gerçəkləşməsinə stimul yaradır, sabaha böyük ümidlər verirdi. Hələ orta məktəb illərində vətəndaşların hüquqlarını, qanunlarımızın aliliyini qorumaq ən ümdə arzum, istəyim olub. Humanitar elmlərə marağım III ixtisas qrupunu seçməyimə səbəb oldu. Qəbul imtahanlarında 568 bal topladım. Ali təhsilimi Naxçıvan Dövlət Universitetinin İngilis dili ixtisası üzrə davam etdirəcəyəm. Əlbəttə, mənim kimi, hər bir gəncin belə uğurlar qazanması dövlətimizin təhsilə olan yüksək diqqət və qayğısı sayəsindədir. Ölkəmizdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş milli inkişaf strategiyası təhsilimizdən də yan keçməyib. Belə ki, hər il şəhər və kəndlərimizdə yeni təhsil ocaqları tikilir, yaxud əsaslı şəkildə təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilir.



Bu gün əldə etdiyim nəticə hələ hər şeyə nail olmaq demək deyil. Mən bir gənc olaraq bundan sonra da səylə çalışacağam ki, mənə dərs deyən müəllimlərin və valideynlərimin etimadını doğruldum.

***Allahverdiyev Toğrul Mirzəmməd oğlu:*** – 2004-cü ildə Qarabağlar kəndində anadan olmuşam. 2010-cu ildə Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin I sinfinə qəbul olmuş, 2021-ci ildə həmin məktəbin XI sinfini bitirmişəm. Orta məktəb illərində məktəbimizdə, eləcə də rayon səviyyəsində keçirilən tədbirlərdə, fənn olimpiadalarında, sınaq-test imtahanlarında həmişə fərqlənmişəm. Ali məktəblərə qəbul imtahanları zamanı II ixtisas qrupu üzrə imtahan vermiş və 564 bal toplamışam. Ali təhsilimi İqtisadiyyat ixtisası üzrə davam etdirəcəyəm. Çalışacağam ki, bundan sonra da mənə inananların etimadlarını doğruldum. Onu da vurğulamalıyam ki, əldə etdiyim bütün bu uğurlarda mənə dərs deyən müəllimlərimin, üzərimdə zəhməti olan valideynlərimin böyük rolu olmuşdur.



*Göründüyü kimi, yüksək nəticə əldə etmiş abituriyentlərin hamısı qazanılan nailiyyətin kökündə təhsilə göstərilən dövlət qayğısını əsas görür. İnanırıq ki, dövlətimiz tərəfindən təhsilimizin inkişafına göstərilən bu qayğı, yaradılmış şərait bu sahədə uğurların gələcəkdə də davam etməsinə vəsilə olacaq.*

**Babək İSMAYILOV**

*Yüzillik mətbuat arxivimizdən bu günə*

# Naxçıvanın turizm potensialının təbliği “Şərq qapısı” qəzetinin səhifələrində

***XX əsrin 50-ci illərindən başlayaraq dünyada sürətlə yayılmağa başlayan turizmin inkişafı bu sahənin geniş təbliğatı ilə mümkün olmuşdur. Turizm ehtiyatlarının və ümumilikdə, turizm potensialının öyrənilməsi ilə yanaşı, onların kütləvi təbliğatı da insanları səyahətlərə cəlb edən amillərdən biridir. Məhz buna görə də 100 illik yubileyi qeyd olunan “Şərq qapısı” qəzetinin də Naxçıvan Muxtar Respublikasında turizmin təbliğində çox mühüm xidmətləri olduğunu deyə bilərik. Belə ki, hələ keçmiş sovetlər dönəmində turizmin tamamilə dövlət inhisarında olduğu vaxt sərhədyanı bölgə olan Naxçıvana əcnəbi turistlərin səfərləri məhdudlaşdırılmış və qədim diyarın turizm ehtiyatları da istifadəsiz qalmışdı. Bununla belə, insanların yaşadığı diyarın sahib olduğu təbii gözəlliklərini, tarixi-mədəni zənginliklərini tanıtmaq, bununla fəxr etmək kimi vətənpərvər hissləri həmişə, hər fürsətdə özünü göstərirdi. Belə unikal imkanları isə hələ 70-80 il əvvəl öncül mətbuat orqanlarından biri olan “Şərq qapısı” qəzeti yaradırdı.***




Bu gün Naxçıvana səfər edən turistlərin əsas motivləri arasında qədim diyarın tarixi abidələri, təbii sərvətləri və qonaqpərvərlik elementləri ilə tanışlıq mühüm yer tutur. Qəzetin arxivinə nəzər saldıqda hələ 1940-cı illərdən başlayaraq Naxçıvanın mineral suları, yaşı min ilə çatan qədim abidələri haqqında olan məqalələri bugünkü turizm ehtiyatları haqqında dərc olunan çoxsaylı yazıların girişi kimi də qiymətləndirmək mümkündür. Şübhəsiz, bunlar o zaman çox ciddi şəkildə aparılan kommunizm ideologiyasının fonunda çox cəsarətli addımlar idi və həmin dövrdə mərkəzin icazəsi olmadan ayrı-ayrı bölgələrin, xüsusən də Naxçıvan kimi iki kapitalist dövləti ilə həmsərhəd olan bir regionun turizm cazibəsindən danışmaq böyük qətiyyət və vətənpərvərlik duyğusu tələb edirdi.

Həmin dövrlər qəzetin səhifələrində indiki kimi birbaşa olaraq insanları turizmə çağıran, asudə vaxtını səyahətlərdə keçirməyi təbliğ edən yazılar olmasa da, Naxçıvanın turizm imkanlarının təbliği və ümumiyyətlə, “turizm” və “turist” ifadələrinin ilk dəfə işlədilməsi baxımından 20 oktyabr 1957-ci ildə dərc olunmuş “Qafqazın turist xəritəsi” adlı məqalə diqqəti cəlb edir. Bu məqalədə Naxçıvanın turist marağı kəsb edən görməli yerləri haqqında Moskvada çap edilmiş turist xəritəsində qeyd olunması barədə məlumatlar vardır. Daha sonra qəzetin 17 may 1959-cu il sayında dərc olunmuş “Dağ-iqlim kurortlarından geniş istifadə edək” adlı yazı Naxçıvanda müalicə turizminin perspektivlərinə mütəxəssis rəyi baxımından əhəmiyyətlidir. 19 iyul 1961-ci il tarixli “Turizmi inkişaf etdirək” başlıqlı yazı isə həcmcə kiçik olsa da, əslində, o dövrdə insanların turizm mövzulu yazılara nə qədər çox meyilli olduğunu göstərir.

Qəzetdə 13 noyabr 1964-cü il tarixdə dərc edilmiş “Culfa turist şəhəri olacaqdır” başlıqlı kiçik yazı o dövrdə şəhərin mühüm tranzit mövqeyinə hesablanmış və bəlkə də, 30 il sonra, yəni Azərbaycanın müstəqilliyi dövründə xaricə turist səfərlərinin çox geniş yayıldığı dövr üçün qiymətli ideyalar ortaya qoyur. Yaxud Şahbuzun təbiət gözəli Batabat yaylağının yalnız ferma və yaxud heyvandarlıq məqsədilə istifadəsinə bir növ üsyan edən görkəmli elm xadimi Budaq Budaqov hələ qəzetin 27 sentyabr 1969-cu il sayında “Mərcan gözlü Batabat” başlıqlı yazısı ilə bu cənnətməkanın gözəl turizm, istirahət guşəsi olduğunu dilə gətirirdi. Bugünkü yazılarla müqayisədə mövzuya akademik səviyyəli yanaşma baxımından həmin yazını qəzetin turizm təbliğatı tarixində bir başlanğıc da saymaq mümkündür. Daha sonrakı dövrlərdə qələm əhlinin müxtəlif rekreasiya, tanışlıq məqsədli yazılarını görsək də, qəzetin 8 iyun 1976-cı il tarixli nömrəsində Əməkdar jurnalist Nurəddin Babayevin “İstirahət! Necə, harada”, yaxud Muxtar Məmmədoğlunun 1 oktyabr 2004-cü il tarixli “Ölkə üçün gəlirli sahə: turizm” başlıqlı yazılar asudə vaxtın təşkili baxımından dövrünün reallıqlarına görə çox aktual məqalələr idi.







Sonrakı dövrlərdə qəzet turizm və tanıtım baxımından olduqca rəngarəng mövzulara toxunurdu. Məşhur norveçli səyyah Tur Heyerdalın Azərbaycana səfərindən tutmuş (3 sentyabr 1981-ci il) ulu öndər Heydər Əliyevin büstünün Naxçıvan şəhərinin ən gözəl yerində – Əcəmi seyrəngahında açılması ilə əlaqədar verilmiş geniş yazıyadək (1 avqust 1986-cı il) olduqca maraqlı yazılar vardır.

Naxçıvanın cazibədar turizm ehtiyatlarının təbliği hətta Azərbaycan xalqı ən ağır günlərini yaşadığı 1988-1994-cü illərdə də unudulmamışdır. O zamanlar Novruz bayramı şənliklərinə icazə verilməsi, müqəddəs Əshabi-Kəhf ziyarətgahına edilən səfərlərin azad olması, daha sonra sərhədyanı ticarətin liberallaşması və dünya azərbaycanlılarının həmrəylik arzularından doğan qovuşmaq istəyi qəzetdə dərc olunan yazıların da motivlərini təşkil edirdi. O dövrdə Naxçıvanda siyasi fəaliyyətlə məşğul olan ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində sovetlərin dağılmasından və erməni təcavüzü nəticəsində təklənmiş Naxçıvan əcnəbi jurnalistlərin, iş adamlarının və diplomatların səfər etdiyi region kimi diqqəti çəkirdi. “Türkiyə-Azərbaycan: qarşılıqlı faydalı işgüzar əlaqələr” (4 mart 1990-cı il), “Təbriz oxuyur”du dağlar başında” (25 aprel 1990-cı il), “İtaliya jurnalistləri Naxçıvanda” (18 iyul 1990-cı il), “Türkiyənin nümayəndə heyəti Naxçıvanda” (17 yanvar 1991-ci il), “Ərzuruma gedən yollar (15 may 1991-ci il), 1992-ci ildə Naxçıvan Hava Limanına ilk iritutumlu təyyarələr qəbul edilməsindən xəbər verən 3 mart sayında “Yeni hava xətti açıldı”, ümummilli lider Heydər Əliyevin 23 mart 1992-ci ildə Türkiyəyə səfəri zamanı Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəllə görüşü barədə (1 aprel 1992-ci il), Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin 28 may 1992-ci ildə Naxçıvana səfəri (30 may 1992-ci il) barədə yazıları bu dövrdə qəzetin səhifələrində oxuyuruq.

16 dekabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvana rəhbər seçilməsi muxtar respublikanın müasir inkişafında dönüş nöqtəsi oldu. Bundan sonrakı dövr bütün sahələrdə, o cümlədən turizmin inkişafında da yeni mərhələ başladı. Bu dövrdən sonra Naxçıvanda həyata keçirilən elmi tədbirlər, simpozium və konfranslar, rəsmi səfərlər turizmin inkişafına mühüm təsir edən amillər olmuşdur. Qədim diyardakı abidələrin tədqiqi və bərpası, muzeylərimizin fəaliyyətinin işıqlandırılması, yeni muzeylərin yaradılması, yaşıllıqların artırılması, biomüxtəlifliyin qorunması ilə yanaşı, həyata keçirilən infrastruktur layihələri öz nəticəsini turizmin də inkişafında göstərmişdir. Naxçıvanda yeni otellərin inşası, mövcud otellərin 5 ulduzlu keyfiyyət standartları səviyyəsində yenidən qurulması, turizm idarəolunması üzrə aidiyyəti təşkilatların müasir maddi-texniki şəraitlə təmin olunması kimi turizmin inkişafına müsbət təsir edən amillər qəzetin ilk səhifələrində oxuculara təqdim edilmişdir.

2011-ci il ölkəmizdə “Turizm ili” elan olunmuşdur. Həmin il qəzet də bu istiqamətdə təbliğatda dönüş etmiş, geniş təhlil və təbliğ məzmunlu yazılar dərc etmişdir. Bu dövrdən başlayaraq qəzetdə “Naxçıvan Muxtar Respublikasının turizm marşrutları” rubrikasındakı silsilə məqalələr, muzey ziyarətləri, əcnəbi turistlərin Naxçıvana səyahət təəssüratları, Naxçıvan haqqında xaricdə nəşr olunmuş yazılar haqqında xəbərlər qəzetin səhifələrini oxunaqlı etmişdir. 2012-ci ildə qəzetin internetdə yayımlanması, ayrıca olaraq ingiliscə turizm məzmunlu məqalələrin virtual məkanda yüz minlərlə oxucuya çatdırılaraq Naxçıvana səyahətə gəlmək istəyənlər üçün əsl informasiya komfortu yaratmışdır. Həmin illərdə ölkə başçısının Naxçıvana səfərləri, türkdilli ölkə liderlərinin muxtar respublikada keçirilmiş zirvə görüşləri, tanınmış elm, mədəniyyət xadimlərinin səfərləri, ənənəvi olaraq keçirilən beynəlxalq idman tədbirləri, müxtəlifməzmunlu festivallar turizm-tanıtım baxımından da əsl fürsətə çevrilmiş və bu mühüm hadisələr qəzetin başlıqlarında yer almışdır.

18 mart 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi” mövzusunda müşavirə keçirilmiş, aidiyyəti təşkilatlar qarşısında ciddi vəzifələr qoyulmuşdur. Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikadakı turizm ehtiyatlarının və yaradılmış turizm infrastrukturunun potensialından tam istifadə olunmadığını qeyd edərək əlaqədar təşkilatların Naxçıvana turistlərin səyahətlərinin artırılması üçün daha səmərəli işləmələri üçün ciddi tapşırıqlar vermişdir.

2018-ci ildə Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur. Bu mühüm beynəlxalq tədbir çərçivəsində Naxçıvana səfər etmiş çoxsaylı qonaq blokada şəraitində Naxçıvanın hərtərəfli inkişafına şahid olmuş, xalqımızın qonaqpərvərliyinə və tolerantlığına heyran qalmışlar. Bütün bunlar bir əsrə yaxın jurnalistika təcrübəsi məktəbində yetişmiş qəzet əməkdaşlarının usta qələmində işıqlandırılmış, müxtəlif mövzulara toxunulmuşdur.

Bu gün Naxçıvan özünün əsl intibah dövrünü yaşayır. Naxçıvana gələn hər bir qonaq, hər bir peşəkar səyyah Gəmiqayadan bu qədim Nuh yurduna ani bir nəzər salıb, Ordubadın qədim küçələrində yüz illər öncəsinə səyahət edir, Əshabi-Kəhfdə ürəyinin ən şirin arzuları üçün dualar edib, Haçadağdan doğan Günəşin parıltısına heyran olur, Gurbulaqdan su içib, Batabatın, Ağbulağın yaşıl libasından özünə çiçək çələngi tutur, Əlincənin zirvəsinə birnəfəsə çıxıb, Duzdağın təmiz havasında sərinləyir, Əcəmi sənətinin qüdrəti qarşısında baş əyib, Naxçıvanqalada özünü evindəki kimi hiss edir. Beləcə, bir həftəliyə Naxçıvana gəlmiş turistlər bu torpağın məhəbbətindən doymadan 5 minillik tarixi şəhərə əlvida demədən yenidən bir də səyahət üçün gələn mövsümə hazırlıqlar aparır.

*Bütün bunlar, müasir Naxçıvanın 100 yaşlı qəzetimizin səhifələrinə sığmayan turizm mənzərəsinin yaddaşlarda qalmış iri başlıqlarının, gözəlliyindən doyulmayan fotolarının qısa hekayəsidir.*

✍ **Əli CABBAROV**

## Dərs vəsaitinin təqdimatı keçirilib



Naxçıvan Dövlət Universitetində Memarlıq və mühəndislik fakültəsinin dekanı, Elektronika və informasiya texnologiyaları kafedrasının professoru Cavanşir Zeynalovun “Robototexnikanın əsasları” adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2021-ci il üçün nəşr planına əsasən çap olunan dərs vəsaitinin universitetdə yeni texnoloji, innovativ, beynəlxalq əməkdaşlıq kimi digər sahələrə təsir edəcəyini qeyd edib. Bildirilib ki, dərs vəsaiti əsasında müvafiq elmlər, xüsusilə elektronika, mexanika, kibernetika, telemexanika, mexatronika, informatika elmləri səmərəli şəkildə öyrəniləcək. Rektor ölkə universitetləri arasında ilk dəfə nəşr olunan dərs vəsaitinin elmi və təcrübi əhəmiyyətini qeyd edərək müəllifə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb.




Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Məftun Əliyev bildirib ki, 8 fəsil 336 səhifə həcmində olan dərs vəsaitində robotların yaranma tarixi, robototexnikanın əsasları, layihələndirmənin əsasları, robotların hazırlanması üçün alətlər, materiallar və avadanlıqlar, robotexniki konstruksiyaların elementləri, robotun idarə olunması, robotun naviqasiyası, təhsildə ekzotik robotlar haqqında elmi məlumat öz əksini tapıb.

İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri, Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimi Hüseyn Əsgərli robototexnika elminin elektronika, mexanika, kibernetika, telemexanika, mexatronika, informatika elərcə də radio və elektrik mühəndisliyi kimi fənlərlə sıx bağlı olduğunu dilə gətirib.

Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimi Heydər Xəlilov qeyd edib ki, əhatəli şəkillərlə zəngin dərs vəsaitində avtonom və yarımavtonom robotların izahı verilməklə, idarəetmənin kabel, infraqırmızı pult, radio, bluetooth, Wi-Fi, mobil telefon vasitəsilə təşəkkül tapan formalarına nəzər salınıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi aparatının sektor müdiri Murad Babayev muxtar respublikada STEAM təhsil metodunun tətbiqindən danışıb. Vurğulanıb ki, qısa müddətdə tətbiqinə baxmayaraq, şagirdlər tərəfindən 100-dən çox STEAM və Robototexnika layihələri hazırlanıb və Texnosərgidə nümayiş etdirilib.

Diqqətə çatdırılıb ki, təqdimatı keçirilən yeni nəşr məktəblərdə STEAM dərslərinin yüksək səviyyədə tədrisinə öz müsbət təsirini göstərəcək.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı Gülsüm Əsədova mexatronika və robototexnika sahələrindən danışıb.

Sonda müəllif elmə, təhsilə göstərilən qayğıya görə dövlətimizə minnətdar olduğunu bildirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***




**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər.*





*Şəhid Aşur Cəmiyev, rəssam Fikrət Babayev*



*Şəhid Mərhəmət Həmzəyev, rəssam Telman Abdinov*

Tarixi zəfərlə Azərbaycan xalqının milli qürur rəmzinə çevrilən Vətən müharibəsinin başlanmasının bir illiyi ərəfəsindəyik. Bu zəferi öz qızıl qanları ilə milli tariximizə, yaddaşımıza əbədilik həkk etmiş, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq 27 sentyabr – Anım Gününü qeyd edəcəyik.

Ali Baş Komandan, dövlət başçısı cənab İlham Əliyevin də vurğuladığı kimi, Naxçıvandan olan hərbçilər də Qarabağda gedən hərbi əməliyyatlarda böyük şücaət göstərmiş, torpaqlarımızın işğaldan azad olunması üçün canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmişdir. Həmin dövrlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hər bir şəhidimizin qarşılanma mərasimində şəxsən iştirak edərək onlara böyük ehtiram göstərməsi, şəhid ailələrimizə nümunəvi dövlət qayğısı ilə əsl vətənpərvərlik örnəyinə çevrildi. Bu bir daha sübut etdi ki, Vətənə və xalqa xidmətin ən ali məqamı şəhidlikdirsə, onlara göstərilən yüksək ehtiram dövlət - xalq - ordu birliyinin parlaq təzahürüdür.

Bu müddət ərzində diyarımızın 100 yaşlı mətbuat salnaməsi–“Şərq qapısı” qəzeti olaraq müxtəlif səpkili məqalələrlə şəhidlərimizin qəhrəmanlıqlarını, vətənpərvərlik əzmini və döyüş şücaətini işıqlandırmağa çalışdıq, “Əfsanəyə dönən ömürlər” rubrikası ilə silsilə məqalələr dərc etdik. Bu il 50 illik yubileyini qeyd etdiyimiz Naxçıvan Rəssamlar Birliyi isə təşəbbüs göstərərək Naxçıvan şəhidlərinə həsr olunmuş “Qəhrəmanlar unudulmur!” devizi altında portret sərgi keçirdi, muxtar respublikamızın tanınmış rəssamlarının işlədikləri şəhid portretləri onların ailə üzvlərinə təqdim edildi. Biz də incəsənət xadimlərimizin vətənpərvərlik nümunəsini alqışlayaraq bu tarixi günlərdə həmin dəyərli sənət əsərlərini “Şərq qapısı” vasitəsilə silsilə şəklində oxucularımıza təqdim etmək qərarına gəldik.

Ey, ölüm-olum anında Vətənin bütövlüyünü, torpağın müqəddəsliyini həyatından üstün tutan qüdrətli Vətən oğlu! Bu portretlər qalereyasında özünü “tapmasan”, sanma ki, unudulmusan! Bil ki, bu, sənin qəhrəmanlığının vəsfində qələmin də, fırçanın da acizliyindəndir! Sən öz əksini qızıl qanınla Vətən göylərində, ruhumuzda, qəlbimizdə əbədilik həkk etmisən, bu xalqın ruhunda, varlığındasan! Şair Məhmət Akif Ərsoy demişkən:

*Ey şəhid oğlu, şəhid, istəmə məndən məqbər,*
*Sənə ağuşunu açmış duruyor Peyğəmbər.*



*Şəhid Seymur İbrahimov, rəssam Səyyad Bayramov*



*Şəhid Sahil Məmmədov, rəssam Mir İlqar Seyidov*



*Şəhid Ümid Novruzov, rəssam Fərqanə Seyidova*



*Şəhid Elməddin Həsənov, rəssam Ələsgər Əsgərli*



*Şəhid İman Alməmmədov, rəssam Nizami Məmmədov*

## Gənclər şəhid ailələrini ziyarət ediblər

Dünən Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının birgə təşkilatçılığı ilə bir qrup könüllü gənc tərəfindən Naxçıvan şəhərində yaşayan şəhid ailələri ziyarət olunub. Tədbir iştirakçıları şəhidlərimiz – baş leytenant Hüseynov Raqib Adil oğlu, Mayor Həsənov Sadiq Əli oğlu və doğum günü qeyd olunan əsgər Qurbanov Xansu Elsevər oğlunun ailə üzvləri ilə görüşüb, qəhrəman şəhidlərimizin keçdiyi döyüş yolundan, qəhrəmanlıqlarından söz açıblar.



Gənclər və idman nazirinin müavini, Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov və Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev görüşlər zamanı şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad yetişdirdikləri üçün şəhid valideynlərinə dərin minnətdarlıqlarını bildiriblər. Vurğulanıb ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə dövlət-xalq-ordu birliyinin parlaq təcəssümüdür. Sözsüz ki, zəfər yolunda gözünü qırpmadan döyüşə atılan gənc nəsli də xüsusi qeyd etmək lazımdır. Bildirilib ki, qəhrəman övladların – şəhidlərimizin həyatı, keçdiyi döyüş yolu hər bir vətəndaşa, xüsusilə də gənclərimizə örnəkdir. Belə tədbirlərin təşkil olunması məqsədi həm şəhidlərimizin ruhuna ehtiram, minnətdarlıq borcu, ailələrinin yanında olmaq, onlara mənəvi dəstək göstərmək, həm də gənclərin qəhrəmanlarımızı daha yaxından tanımasına, vətənpərvərlik ruhunda formalaşmasına zəmin yaratmaqdır.

İştirakçılara şəhidlərimizin xidməti fəaliyyəti, təltif edildikləri orden və medallar barədə məlumat verilib. Ailə üzvləri onlar haqqında xatirələrini bölüşüblər. Tədbir çərçivəsində şəhid məzarları ziyarət edilib, onların ruhuna dualar oxunub.

Qeyd edək ki, bu tipli görüşlərin təşkili bundan sonra da diqqətdə saxlanılacaq.

## Muxtar respublika birinciliyinin qalibi müəyyən olub



***İlham Əliyev adına Olimpiya İdman Kompleksində qızlardan ibarət voleybol komandaları arasında Naxçıvan Muxtar Respublika açıq birinciliyinə yekun vurulub.***

Yarışa şəhər və rayonlardan, ümumilikdə, 9 komanda qatılıb. Dairəvi sistem üzrə iki yarımqrupda oynanılan birincilikdə yüksək göstəriciyə nail olan 4 komanda yarımfinal mərhələsində mübarizəyə davam edib. Bu mərhələni qalib kimi tamamlayan “Sədərək” və “Culfa” komandaları həlledici final görüşündə bir-birinə rəqib olub. Qarşılaşmada üstün oyun nümayiş etdirən sədərəkli məktəblilər birinciliyin qalibi olub. Culfa təmsilçiləri ikinci yerdə qərarlaşıb. Üçüncülük oyununda “Naxçıvan-1” ilə görüşdə qələbə qazanan “Kəngərli” bürünc medallara sahib çıxıb.

İlk üçlükdəki kollektivlər diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar. Sədərək voleybolçularına yarışın əsas mükafatı – kubok təqdim edilib.

Qeyd edək ki, regionda qadın voleybolunun inkişaf etdirilməsi, kütləviliyin təmin olunması və idmançıların oyun təcrübəsinin artırılması məqsədilə keçirilən birincilik Gənclər və İdman, Təhsil nazirlikləri və Voleybol Federasiyası tərəfindən birgə təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri mövzusunda növbəti maarifləndirici tədbir keçirilib.

Xidmətin əməkdaşı Elnur Zellabdinov əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olması və yaşaması barədə ətraflı məlumat verib. Çıxışda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma və yaşama müddətinin uzadılması qaydası və tələb olunan sənədlər barədə də geniş məlumatlar verilib.

Sonra iştirakçılarına maarifləndirici bukletlər paylanılıb, suallar ətraflı cavablandırılıb.

Tədbirin yekununda əcnəbilərin Xatirə Muzeyinə ekskursiyası təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Oğuzkənd sakini Əhmədov Koroğlu Əhməd oğlunun adına verilmiş JN-136 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Tumbul kənd sakini Salmanov Qulu Mehbalı oğlunun adına olan 10307028 kodlu, JN-007A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibatsız sayılır.

* * *

Tağıyev Səbuhi Gündüz oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 790